


*Faşizm üzərində ümumi Qələbəmizə Azərbaycan layiqli töhfə verib. Azərbaycanın 600 mindən çox oğlu və qızı Böyük Vətən müharibəsi cəbhələrində döyüşüb, onların yarısı ümumi Qələbəmiz uğrunda canından keçib. Müharibə illərində göstərdikləri igidliyə görə Azərbaycanın 130-dan çox nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycan bütün ölkəni yanacaqla təmin edib. Cəbhə üçün çox zəruri olan neftin 70 faizdən çoxu, benzinin 80 faizi, motor yağlarının 90 faizi Azərbaycanın payına düşürdü. Bunlar olmasaydı, sovet ordusu düşmənə qalib gələ bilməzdi.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

**Aşqabad, 11 oktyabr 2019-cu il**

# Prezident İlham Əliyevdən düşmənə ağır zərbə

## *Daşnak generalı Qaregin Njde və erməni legionu Sovet İttifaqına qarşı vuruşmuş, yəhudilərin əleyhinə Holokost soyqırımında iştirak etmişlər*

**Müstəqil Dövlətlər Birliyi Dövlət Başçıları Şurasının oktyabrın 11-də Türkmənistanın paytaxtı Aşqabad şəhərində keçirilən Zirvə görüşünün gündəliyində postsovet məkanı ölkələri üçün xüsusi önəm kəsb edən məsələlər var idi. Həmin məsələlərin ən mühümü Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi ilə əlaqədar dövlət başçılarının Birlik ölkələrinin xalqlarına və dünya ictimaiyyətinə müraciəti idi. Çünki SSRİ xalqları son yüzilliklərin ən dağıdıcı, qanlı müharibəsinin ön və arxa cəbhələrində gələcək nəsillər üçün nümunə olan qəhrəmanlıq və igidlik göstəriblər.**

Təbii ki, keçmiş müttəfiq respublikaların rəhbərlərinin həmin qələbənin gələn il keçiriləcək ildönümü ilə bağlı məsələ ətrafında danışmağa sözü olmamış deyildi. Bu baxımdan orada Azərbaycan Prezidenti cənab İlham Əliyevin çıxışı böyük əks-səda doğurdu.

**Birinci:** Azərbaycan Prezidentinin çıxışının maraqla gözlənilməsinin əsas səbəbi faşizm üzərində qazanılan qələbədə respublikamızın və xalqımızın, xüsusən, Bakı neftinin daha çox payı olduğunu hamının bilməsi idi. Dövlətimizin başçısının çıxışı nəinki maraqla qarşılandı, hətta, regionun bütün ölkələrində böyük əks-səda, Ermənistanda isə zəlzələ effekti yaratdı.

**İkinci:** Ermənistanın baş naziri Nikol Paşinyanın çıxışı isə ona görə maraqla gözlənilirdi ki, o, bir neçə gün öncə, Soçidə Azərbaycan Prezidentindən aldığı zərbənin sarsıntısından xilas ola bilməmişdi. Ona görə də, hətta Prezident İlham Əliyevdən əvvəl danışsaydı belə, mütləq nala-mıxa vurmalı idi. Ancaq əlifba sırasına görə digər həmkarlarından əvvəl danışan Azərbaycan Prezidentinin nitqi öz kreslosunda sanki titrəyə-titrəyə oturmuş Nikol Paşinyanı necə "nokaut" vəziyyətinə saldısa, o, çəkici nəinki gah nala, gah mıxa, hətta öz əlinə vurdu və tamamilə anlaşılmaz ifadələrlə növbəti dəfə acınacaqlı duruma düşdü.

Azərbaycan Prezidentinin və Ermənistanın baş nazirinin nitqlərindən bəzi məqamlar:

**Prezident İlham ƏLİYEV:** "Hərbi kinoxronikada məşhur kadrlar var: Hitlerə verilən tortun üzərində alman dilində "Xəzər dənizi" sözləri yazılmış bir oyuq, həmin oyuqda "Bakı" adlı qara rəngli maye şokolad var. Hitler şokoladı qaşıqla götürür və tortun üstünə süzür, sonra svastika şəklində şokoladı götürüb "Bakı" sözü yazılan yerə qoyur. Bu kadr faşistlərin Azərbaycanın neft yataqlarını, həmçinin hamımızın bildiyi kimi, Şimali Qafqazın neft yataqlarını tutmaq planlarını vurğulayır. Əgər faşistlər Bakını tutmağa müvəffəq olsaydılar, sovet ordusu Qələbə üçün çox zəruri olan yanacaqsız qalardı, Bakı şəhəri isə havaya sovrulardı. Çünki belə fövqəladə vəziyyətdə sovet hökuməti neft quyularının düşmən əlinə keçməməsi üçün onların hamısını minalamışdı. Yəni, bu halda qurbanların sayı bəlkə yüz minlərlə olardı".

### Paşinyanın sayıqlaması

Nikol Paşinyanın hətərən-pətərən çıxışına diqqət yönəldək:

"İlham Heydər oğlunun nitqindən belə təəssürat yaranır ki, ümumiyyətlə, bu müharibədə Hitler yalnız ikinci dərəcəli rol oynayıb və nasist hərəkatının lideri Qaregin Njde olub. Həqiqət isə budur ki, Qaregin Njde Ermənistanın türk işğalına və türklərin təşkil etdikləri ermənilərin soyqırımına qarşı mübarizə aparıb".

Fikrimizcə, "Almaniya uğrunda həlak olan Ermənistan uğrunda həlak olur" - deyə çağırış edərək, əsir düşmüş erməniləri başına yığıb Hitlerin çəkmələrini yalayan erməni generalı Ter-Arutyunyanın – Qaregin Njdenin həmin addımlarını 1915-ci ildə Osmanlı dövlətində baş verən hadisələrlə bağlamaq, satqın, şərəfsiz zabitin xəyanətlərinə şərik olmaqdır. Bunun başqa adı yoxdur.

Sovet kəşfiyyatının gözündən yayınmayan bütün xəyanətlər kimi Qareginin satqınlığı da cavabsız qalmadı və o, həbs olunaraq Vladimir həbsxanasında ömrünü başa vurdu. Bu şərəfsiz tarixçədən xəcalət çəkməyən Ermənistan prezidenti Serj Sarkisyanın göstərişi ilə 2016-cı ildə İrəvanın mərkəzində həmin xəyanətkar cəllada hündürlüyü 6 metrə yaxın olan heykəl qoyulub. Faşizm üzərindəki şanlı qələbənin 75 illiyi ilə bağlı məsələnin müzakirə edildiyi görüşdə Azərbaycan Prezidentinin " Hesab edirəm ki, MDB məkanında faşizmin qəhrəmanlıq kimi qələmə verilməsinə yer yoxdur" – qətiyyətinin məqsədi də məhz həmin rəzil cəlladın heykəlinin sökülməsi tələbi idi.

### Hitlerin əlini öpüb Stalinə yalvarırdı

Oktyabrın 11-də Azərbaycan Televiziyasının Aşqabaddan hazırladığı materiala baxarkən iki il əvvəl erməni mətbuatında Qaregin Njde haqqında oxuduğum material yadıma düşdü. İşə gələn kimi həmin materialı internetdə axtardım. "Makedoniyalının çağırışı" ("Призыв Македонянина") onlayn jurnalın 22 yanvar 2017-ci il tarixli nömrəsində "Njdenin Stalinə məktubu" adlı yazıda Njde Qareginə bəraət qazandırmaq istənilirdi. Hətta məqaləni təqdim edənlər SSRİ rəhbəri İosif Stalini təhqir edirdilər ki, Qaregin müraciət etsə də, Kreml rəhbərində onu bağışlayacaq ritsar qeyrəti çatmadı".

Məqalənin əsli Rusiyadakı erməni diasporunun orqanı olan "Наири в Калининграде" adlı qəzetin 2014-cü ilin iyul ayında çıxan 97-ci nömrəsinin üçüncü səhifəsində, "Vətənpərvərlik dərsləri" ("Уроки патриотизма") rubrikasında verilib.

Bu vətən xaininin Vladimir həbsxanasından İosif Stalin və daha iki ünvana göndərdiyi, ermənilərin "O, rıtsarcasına mərhəmət, bağışlanmaq gözləyirdi" deyə təqdim etdiyi məktubun ancaq son abzasını tərcümə etməyə vaxtımız oldu. Amma bu mövzuya qayıdacağıq. Hələlik isə, "SSRİ Nazirlər Sovetinin sədri İosif Stalinə, SSRİ Dövlət Təhlükəsizliyi naziri general Abakumova və Sovet Ermənistanının təhlükəsizlik naziri Qorxmazyana" ünvanlanmış məktubun son abzasına baxaq:

### "Vətəndaş Generalissimus!

Mən Sofiyadan getməyərək, yüksək vətənpərvərlik nümunəsi və Sovet hakimiyyəti ilə barışmaq məqsədilə səmimi arzularımı nümayiş etdirdim.

Mən Sizə inanmaqda davam edirəm.

Kim həqiqətən böyük olan insana, onun böyüklüyünə inanırsa, o, heç zaman peşman olmur.

Mən inanıram ki, Sofiyadan getmədiyimə görə təəssüf etməyəcəm.

Gözləyirəm ki, mənim rıtsarlığıma rıtsarcasına cavab veriləcək".

Fikrimizcə, vətən xaininin bu qədər şərəfsizlikdən sonra özünə cəngavər, comərd deməsini və mərhəmət diləməsini ancaq erməni satqını bacara bilərdi. Çox təəssüf ki, həm Serj Sarkisyan, həm də Ermənistanın indiki rəhbəri Nikol Paşinyan cəllad Ter-Arutyunyanın həmin vicdansızlıqlarına şərik, ortaq olduqlarını rəsmi şəkildə təsdiq edirlər.

*İttifaq MİRZƏBƏYLİ,*
*"Xalq qəzeti"*

Xalq qəzeti.- 2019.- 13 oktyabr.- S.1.